# Vəkilin süni intellektli köməkçisi və peşə davranış qaydaları: Azərbaycan və ABŞ qanunvericiliyinin müqayisəli təhlili

*Rüfət Nağıyev**

***Annotasiya***

*Süni İntellekt (bundan sonra — Sİ) artıq hüquq da daxil olmaqla, bir çox sahədə gündəlik olaraq tətbiq edilir. Sİ-dən istifadənin artan tempdə davam etməsi özü ilə bərabər həm üstünlüklər, həm də risklər gətirir. Belə ki, Sİ işlərin avtomatlaşdırılması, hüquqi araşdırmaya ayrılan vaxtın azaldılması və hüquqi yazının daha tez tərtib edilməsi kimi üstünlüklərə malikdir. Bununla belə, vəkilin yeni, süni intellektli köməkçisi yanlış faktların təqdim edilməsi və fərdi məlumatların yayılması kimi riskləri də özündə daşıyır.*

*Bu məqalədə Sİ-nin vəkillik peşəsinə təsiri ABŞ-da bir sıra vəkillər kollegiyaları tərəfindən qəbul edilmiş tənzimləmələr kontekstində araşdırılır. Həmçinin yazıda həmin sənədlərlə Azərbaycandakı vəkillik peşəsini tənzimləyən aktlar müqayisəli olaraq təhlil edilmiş, milli qanunvericilikdəki boşluqlar müəyyənləşdirilmişdir. Sonda isə Sİ texnologiyasından istifadənin cəmiyyətdə sürətlə yayılmasını nəzərə alaraq qanunvericilikdəki boşluqların aradan qaldırılması üçün təkliflər verilmişdir.*

***Abstract***

*Artificial Intelligence (AI) is already applied daily in every field, including law. The continued growth of AI use brings with it both advantages and risks. Thus, AI positively affects the automation of tasks, improves legal research efficiency and expedites document drafting. On the other hand, it creates risks, such as providing fictional and wrong facts due to misrepresentations and data privacy violations.*

*This article examines the impact of AI on the legal profession in the context of recent AI regulations adopted by US bar associations. By comparing those documents with the existing legal framework in Azerbaijan, we identify significant gaps in national legislation. Considering the growing public adoption of AI technology, we propose measures to eliminate gaps in the legislation.*

## MÜNDƏRİCAT

Giriş ....... 121
I. Süni intellektin vəkillər tərəfindən istifadəsi: üstünlüklər və risklər ....... 122
A."ChatGPT" və digər Sİ "chatbot"-ları ....... 123
B. Süni intellektin üstünlükləri və hüquqi praktika ....... 124
C. Süni intellektin tətbiqinin yol aça biləcəyi risklər ....... 125
II. Vəkillərin peşə davranış qaydaları və Sİ ....... 127
A. ABŞ vəkillər kollegiyalarının qaydaları ....... 128

* Tartu Universiteti, İT hüququ ixtisası, I kurs magistr tələbəsi.

B. Azərbaycan Respublikasının qanunvericiliyində vəkillərin fəaliyyətinin tənzimlənməsi ....................131

Nəticə....................135

# Giriş

Süni İntellekt (bundan sonra – Sİ) hüquqi suallara hər zaman doğru cavab verirmi? Sualın cavabı üçün "ChatGPT 3.5"[1] ilə aparılmış aşağıdakı dialoqa baxmaq kifayətdir:

"İstifadəçi: *İstehlakçı aldığı malı hansı müddətdə qaytara bilər?*

ChatGPT: *Azərbaycanda istehlakçılar, aldıqları malı müəyyən bir müddət ərzində qaytara bilirlər. Bu müddət 10 gün təyin edilmişdir. Bu qaytarma müddəti, malın qüsurlu və ya istehlakçıya uyğun gəlməməsi hallarında tətbiq olunur. İstehlakçı məhsulu təslim aldığı gündən etibarən 10 gün ərzində satıcıya bildiriş edərək məhsulu qaytara bilər. Ancaq qaytarma haqqında daha ətraflı məlumat almaq üçün Azərbaycan Respublikasının müvafiq qanunvericiliyini ətraflı şəkildə yoxlamaq önəmlidir*".

İlk baxışdan cümlələrdə heç bir problem yoxmuş kimi görünsə də, müddət 14 gün əvəzinə yanlış olaraq 10 gün kimi göstərilmişdir.[2] Bununla da "ChatGPT"-nin hüquqi sualları "mükəmməl" dərəcədə yanlış cavablandırdığını deyə bilərik.

Hüquqşünasların əksəriyyəti Sİ-dən istifadəyə müsbət yanaşsa da, bəziləri müəyyən risklərə görə narahatlıqların mövcud olduğunu düşünürlər.[3] Bu risklər vəkillərin peşəkar davranış qaydalarında (vəkillik qaydaları) da öz əksini tapmış doğruluq, məxfilik, konfidensiallıq və təhlükəsizlik prinsipləri ilə bağlıdır.[4] Vəkillərin isə Sİ-nin təqdim etdiyi yanlış məlumata əsaslanması həm fərdi, həm də peşəkar səviyyədə mənfi nəticələrə səbəb olmaqla yanaşı, ümumilikdə ədalət mühakiməsinin həyata keçirilməsinə də mane ola bilər. Belə ki, vəkil Sİ-nin verdiyi məlumatları yoxlamadığı üçün müştərisinə layiqincə hüquqi xidmət göstərə bilmədikdə və ya məhkəməyə təqdim edilmiş uydurma faktlar məhkəmələrin iş yükünü əsassız olaraq artırdıqda

---

[1] "Open AI" şirkətinin 30 noyabr 2022-ci ildə dialoq qura bilən Sİ "chatbot"-u "ChatGPT"-ni təqdim etməsindən artıq bir ildən çox müddət keçir. O vaxtdan bəri "ChatGPT"-nin istifadəçi sayı yüz milyonlara çatmış, hətta bu "chatbot" vəkillik və tibb üzrə lisenziya imtahanlarından keçmişdir. Daha ətraflı bax: Somesh Jha, Will ChatGPT take your job – and millions of others? (2023), https://www.aljazeera.com/ features/2023/3/28/will-chatgpt-take-your-job-and-millions-of-others (son baxış 17 fevral 2024).

[2] "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, mad. 15.1 (1995).

[3] Hüquqla bağlı işlərin Sİ əsasında avtomatlaşdırılmasında maraqlı olan hüquqşünasların 51%-nin müvafiq işlərdə "ChatGPT" və ya digər bir yaradıcı Sİ-nin tətbiq edilməli olduğunu hesab edirlər. Bununla yanaşı, iştirakçıların 62%-i iş yerində "ChatGPT" və ya digər bir yaradıcı Sİ-nin tətbiqinin riskli olduğunu düşünür. Bax: Thomson Reuters Institute, ChatGPT and Generative AI within Law Firms, 7, 14 (2023).

[4] Yenə orada, 15.

bir sıra hüquqi problemlər ortaya çıxacaqdır. Bununla yanaşı, Sİ-dən istifadə edərkən konfidensial məlumatların yayılması da nəzərə alınmalı risklərdən biridir. Belə ki, məlumatların gizliliyi ilə bağlı "Custom GPT"-lərlə aparılmış araşdırma bu cür riskin real olduğunu göstərir. Nəticə etibarilə Sİ-yə bu şəkildə etibar etmək vəkillik qaydalarının pozulması ilə yanaşı, ədalət mühakiməsinin işinə mane ola və vəkillərin peşəkar nüfuzunu sual altında qoya bilər.

Sadalanan etik və hüquqi problemlərin qarşısının alınması məqsədilə əvvəlcə ABŞ və Azərbaycanda qüvvədə olan vəkillərin peşə davranışı qaydaları müqayisəli şəkildə tədqiq ediləcəkdir. Daha sonra isə ABŞ təcrübəsindən yararlanaraq Azərbaycanda da bu sahədəki boşluqların aradan qaldırılması üçün müvafiq təkliflər irəli sürüləcəkdir.

Bu məqalədə vəkillik qaydaları dedikdə aşağıdakı ABŞ vəkillər kollegiyaları tərəfindən qəbul edilmiş sənədlər nəzərdə tutulmuşdur: Amerika Birləşmiş Ştatları Vəkillər Assosiasiyası ("ABA") və Kaliforniya Ştatı Vəkillər Kollegiyası. ABŞ-nin vəkillik qaydalarının tədqiq edilməsinin səbəbi isə həm ABŞ-nin Sİ texnologiyasının inkişafı baxımından lider ölkə olması, həm də Sİ-dən istifadə ilə bağlı vəkillər üçün təlimatın ilk dəfə Kaliforniyada qəbul edilməsidir.[5]

Beləliklə, məqalənin I hissəsində Sİ-nin hüquq təcrübəsində tətbiq edilməsinin müsbət və mənfi tərəfləri qiymətləndiriləcəkdir. II hissədə isə ABŞ-dəki vəkillik qaydaları son dəyişikliklərlə birlikdə müzakirə olunacaq və daha sonra Azərbaycan çərçivəsində mövcud vəziyyət qiymətləndirilərək müvafiq dəyişikliklər irəli sürüləcəkdir.

## I. Süni intellektin vəkillər tərəfindən istifadəsi: üstünlüklər və risklər

Sİ texnologiyasının sürətlə inkişafının təsirləri hüquq praktikasında da görünməyə başlamışdır. Belə ki, bu texnologiya müxtəlif sənədlərin hüquqi ekspertizası, rəylərin hazırlanması, hüquqi araşdırmanın aparılması, məhkəmə nəticələrinin proqnozlaşdırılması və müqavilələrin idarə olunması kimi bir sıra işlərin sürətli görülməsinə yardımçı olur.[6] Bununla belə, Sİ-yə xas olan "hallüsinasiya" problemi, yəni gerçək olmayan məlumatların yaradılması hüquq təcrübəsində işlərin avtomatlaşdırılmasına qarşı başlıca maneələrdəndir. Həmçinin Sİ tərəfindən hüquqi əsas olmadan böyük həcmdə

[5] Daha ətraflı bax: The Global AI Index (2023), https://www.tortoisemedia.com/%20intelligence%20/global-ai/#rankings (son baxış 17 fevral 2024); California Bar Passes Disclosure and Billing Guidelines for AI (2023), https://news.bloomberglaw.com/business-and-practice/california-bar-passes-disclosure-and-billing-guidelines-for-ai (son baxış 17 fevral 2024).

[6] Lauri Donahue, A Primer on Using Artificial Intelligence in the Legal Profession (2018), https://jolt.law.harvard.edu/digest/a-primer-on-using-artificial-intelligence-in-the-legal-profession (son baxış 17 fevral 2024).

fərdi məlumatların toplanılması və hər hansı yolla yayılması ehtimalı təhdid olaraq qəbul edilir.[7]

Üstünlük və risklərdən bəhs etməzdən öncə daha aydın olması üçün Sİ-nin anlayışını hazırda geniş istifadə edilən "chatbot" nümunələri üzərindən izah etməyi məqsədəuyğun hesab edirik. Bunun üçün istifadəçi sayının çoxluğuna görə əvvəlcə "ChatGPT" barəsində qeyd ediləcək və Sİ-nin əsas anlayışlarına toxunulacaqdır.

### A. "ChatGPT" və digər Sİ "chatbot"-ları

"ChatGPT" "OpenAI" şirkətinin Böyük Dil Modellərinə ("Large Language Models") əsaslanan Sİ proqramıdır.[8] "GPT" əvvəlcədən təlim edilmiş yaradıcı model ("Generative Pretrained Model") anlamını daşıyır. Bu model maşın öyrənməsi ("Machine Learning") vasitəsilə topladığı böyük həcmdə məlumatlara əsaslanaraq ona verilmiş tapşırıqları həll edir.[9] Belə ki, model maşın öyrənməsi sayəsində məlumatları öyrənir və sonradan özünü həmin məlumatlar əsasında inkişaf etdirir.[10] Nəticə etibarilə əlaqələri müşahidə və aşkar edərək məlumatları proqnozlaşdıra bilir.[11]

"ChatGPT" kimi Sİ "chatbot"-ların başqa bir xüsusiyyəti isə sözlərin emal edilməsi ilə bağlıdır. Belə ki, o, təbii dil emalı ("Natural Language Processing") vasitəsi ilə təbii insan dilini emal edə bilir.[12] Beləliklə, Sİ insanlar tərəfindən istifadə olunan dili qavrayır və uyğun şəkildə dildən istifadə edərək cavablar verə bilir.

"ChatGPT"-nin həftəlik 100 milyondan çox istifadəçiyə malik olması onu geniş istifadə olunan Sİ platforması hesab etməyə imkan verir.[13] Hazırkı versiyaları "GPT-3.5" və "GPT-4" ən müasir süni intellekt modelləri olub esse və tədqiqat işlərinin yazılmasından tutmuş verilmiş mətnin məzmununun ümumiləşdirilməsinə qədər müxtəlif funksiyaları görməyə qadirdir.[14] Bununla belə, hazırda istifadə olunan başqa Sİ "chatbot"-ları da mövcuddur.

---

[7] Daha ətraflı bax: ChatGPT banned in Italy over privacy concerns (2023), https://www.bbc.com/news/technology-65139406 (son baxış 17 fevral 2024).

[8] A Short History Of ChatGPT: How We Got To Where We Are Today (2023), https://www.forbes.com/sites/bernardmarr/2023/05/19/a-short-history-of-chatgpt-how-we-got-to-where-we-are-today/ (son baxış 14 fevral 2024).

[9] Michalis Vazirgiannis & Moussa Kamal Eddine, ChatGPT and the spectacular evolution of natural language processing (2023), https://www.ip-paris.fr/en/news/chatgpt-and-spectacular-evolution-natural-language-processing (son baxış 14 fevral 2024).

[10] Ryan McCarl, The Limits of Law an AI, 90 University of Cincinnati Law Review 923, 928 (2022).

[11] Yenə orada.

[12] Yenə orada.

[13] OpenAI Wants Everyone to Build Their Own Version of ChatGPT (2023), https://www.wired.com/story/openai-wants-everyone-to-build-their-own-version-of-chatgpt/ (son baxış 17 fevral 2024).

[14] ChatGPT: Everything you need to know about OpenAI's GPT-4 tool (2023), https://www.sciencefocus.com/future-technology/gpt-3 (son baxış 13 fevral 2024).

Belə ki, "ChatGPT"-yə rəqib olaraq "Google" tərəfindən hazırlanmış "Gemini" Sİ modeli də mətn, kod, audio və video üzrə məlumatları qavraya və birləşdirə bilir.[15]

Nəticədə, "ChatGPT" kimi böyük dil modelləri artıq geniş şəkildə istifadə olunaraq funksiyalarının köməyilə bir çox işlərin avtomatlaşdırılmasını mümkün edir. Sİ sahəsində rəqabəti nəzərə alaraq qeyd edə bilərik ki, "chatbot"-lar inkişaf etməyə davam edəcək və daha geniş funksiyalara malik olacaqdır.

### B. Süni intellektin üstünlükləri və hüquqi praktika

Sİ-nin müxtəlif funksiyalarından artıq hüquqşünaslar da istifadə edə bilərlər. Belə ki, Sİ "chatbot"-u hüquqi araşdırma nəticəsində yazılar yazmaqla, eləcə də hüquqi tövsiyələr verməklə hüquqşünasların iş yükünü azalda bilər. Həmçinin Sİ vasitəsilə hüquqi sənədlərin hazırlanmasının avtomatlaşdırılması və sənədlərin oxunaqlılığının artırılması ilə də hüquqşünasların daha effektiv fəaliyyət göstərməsi mümkündür.[16]

Hüquqşünasların əsas fəaliyyətlərindən biri kimi müqavilə və digər sənədlərin tərtib edilməsini götürə bilərik.[17] Bu zaman Sİ "chatbot"-una müvafiq verilənin daxil edilməsi (*input*) və göstərişlərin (*prompt*) verilməsi ilə bir neçə saniyə ərzində şablon yaradılması vaxta qənaət kimi üstünlüklə nəticələnə bilir. Belə ki, Minnesota Universitetinin Hüquq fakültəsində 60 tələbə ilə aparılmış tədqiqatın nəticəsinə görə, hüquqi tapşırıqlarda Sİ-dən istifadə işin nəticəsinin keyfiyyətinin artırılması baxımından minimal fərq yaratsa da, tapşırıqların tamamlanması üçün lazım olan vaxtı əhəmiyyətli dərəcədə azaldır.[18] Nümunə kimi, müqavilələrin hazırlanmasında "GPT-4"-dən istifadə etməyənlər ortalama 69,72 dəqiqə, edənlər isə 47,59 dəqiqə vaxt sərf etmişdirlər, başqa sözlə, arada 32,1%-lik fərq olmuşdur.[19]

Sİ-nin başqa bir üstünlüyü isə verilənləri analiz edərək hüquqi işin nəticələri barədə proqnoz verə bilməsidir.[20] Belə ki, vəkillər hüquqi yardım üçün müraciət etmiş şəxslərin müəyyən bir iş üzrə uğur qazanma ehtimalını dəyərləndirərkən, habelə arqumentləri, dəlilləri, eləcə də iş üzrə digər vacib halları qiymətləndirərkən öz bilik və təcrübələrinə əsaslanırdılar.[21] Bununla

---

[15] Introducing Gemini: our largest and most capable AI model (2023), https://blog.google/technology/ai/google-gemini-ai/#introducing-gemini (son baxış 17 fevral 2024).

[16] Thomson Reuters, Future of Professionals Report: How AI is the Catalyst for Transforming Every Aspect of Work, 11 ( 2023).

[17] Harry Surden, *Artificial Intelligence and Law: An Overview*, 35 Georgia State University Law Review 1305, 1328 (2019).

[18] Jonathan H. Choi, Amy Monahan and Daniel Schwarcz, Lawyering in the Age of Artificial Intelligence, Minnesota Legal Studies Research Paper No. 23-31, 16 (2023).

[19] Yenə orada, 20.

[20] Surden, yuxarıda istinad 17, 1331.

[21] Yenə orada.

belə, Sİ artıq məhkəmə işləri arasındakı oxşarlıqları aşkar edərək daxil edilmiş işin nəticəsi ilə bağlı ehtimal irəli sürə bilir. Beləliklə, vəkillər həmin proqnozlara əsaslanaraq müraciət etmiş şəxsin iş üzrə uğur ehtimalını nəzərə alıb hüquqi yardım etmə ilə bağlı daha çevik və asanlıqla qərar verə bilərlər.[22]

Bundan əlavə, müştəriləri qanunvericiliyə dəyişikliklər barədə məlumatlandırmaq üçün müvafiq aktların əvvəlki və yeni versiyaları diqqətlə nəzərdən keçirilib müqayisə edilir. İrihəcmli və mürəkkəb qanunvericilik aktlarının oxunması və tədqiqi, müqayisəli cədvəllərin hazırlanması, eləcə də müştəri üçün lazım olan məlumatların ümumiləşdirilməsi hüquqşünasın böyük enerji və vaxt sərf etməsi deməkdir. Bu da öz növbəsində fiziki yorğunluğa və psixi gərginliyə gətirib çıxarır.[23] Buna baxmayaraq, yaradıcı Sİ üçün belə bir problem yoxdur. Beləliklə, Sİ-nin tətbiqi insan faktorunun yol açdığı səhvləri azaltmaqda effektiv vasitə ola bilər.

Beləliklə, vəkillər Sİ-dən istifadə etməklə işləri daha asan tamamlaya və müştərilərə daha tez nəticə təqdim edə bilərlər. Belə ki, Sİ tərəfindən işlərin müəyyən hissəsinin görülməsi nəticəsində hüquqşünasların işi yalnız Sİ-nin cavabını (*output*) gözdən keçirmək olacaqdır. Vaxta edilmiş qənaət nəticəsində hüquqşünas daha çox müştəriyə xidmət göstərə bilər ki, bu da qısa müddətdə daha çox iqtisadi qazanc əldə etmək deməkdir. Ona görə də yaradıcı Sİ-ni hüquqi işlərdə tətbiq etmək vəkillər arasında geniş yayılmış praktikaya çevrilə bilər.

## C. Süni intellektin tətbiqinin yol aça biləcəyi risklər

Bütün bu üstünlüklərlə bərabər müəyyən risklər də mövcuddur. Məsələn, "hallüsinasiyalara" malik olan yaradıcı Sİ modelləri bir sıra hallarda gerçək olmayan nümunələr, qeyri-dəqiq məlumatlar yaradır və ya çaşdırıcı "rəylər" tərtib edir.[24] Sİ tərəfindən yaradılmış real olmayan fakt və ya mənbələrə etibar etmək isə xəyali qanunvericilik aktlarına və ya məhkəmə qərarlarına əsaslanmaq deməkdir.

Belə "hallüsinasiyalara" istinad etməyin nəticələri isə müxtəlifdir. Sİ-nin yaratdığı yanlış informasiyalar əsasında hazırlanmış hüquqi sənəd hüquqşünasın peşəkarlığını və etik davranış qaydalarına əməl etməsini sual altında qoya bilər. Belə ki, hüquqşünas Sİ-nin yol verdiyi yanlışı aradan qaldırmadan məhkəməyə hər hansı bir sənədi təqdim edər və bu hal aşkar

[22] Yenə orada, 1332.
[23] 7 Ways artificial intelligence can benefit your law firm (2017), https://www.americanbar.org/news/abanews/publications/youraba/2017/september-2017/7-ways-artificial-intelligence-can-benefit-your-law-firm/ (son baxış 17 fevral 2024).
[24] Böyük dil modelləri bəzən məlumatları emal edərkən müxtəlif səbəblərdən yanlış, qeyri-dəqiq və ya müəyyən bir məna ifadə etməyən nəticələr yaradaraq "hallüsinasiya" yaşaya bilər. Məsələn, "Bard" çatbotu yanlış olaraq günəş sistemindən kənarda olan planetin şəkillərinin ilk dəfə Ceyms Vebb Kosmik Teleskopu tərəfindən çəkildiyini iddia etmişdir. Daha ətraflı bax: What are AI hallucinations?, https://www.ibm.com/topics/ai-hallucinations (son baxış 13 fevral 2024).

edilərsə, o, müştərisini lazımınca təmsil edə bilməmiş və nəticə etibarilə peşəkar nüfuzuna xələl gəlmiş olacaqdır. Təəssüf ki, beynəlxalq təcrübədə Sİ alətlərinə həddindən artıq etibar etməyin səbəb olduğu bu cür xoşagəlməz hallar baş vermişdir.

Məsələn, Nyu-York hüquqşünasları Stiven Şvortz və Piter Loduka məhkəməyə müraciət edərkən öz ərizələrində "ChatGPT" tərəfindən yaradılmış saxta məhkəmə işlərinə istinad etmişdirlər.[25] İş üzrə hakim Kastel texnoloji yeniliklərin tətbiqinin özlüyündə yanlış bir davranış olmadığını qeyd etsə də, vəkillərin mövcud qaydalara əsasən ərizələrin doğruluğunu təmin etmək kimi öhdəliklərinin olduğunu da bildirmişdir.[26] Beləliklə, bu səhv onlara 5000 ABŞ dolları məbləğində cərimə və xəbərdarlıqla nəticələnmişdir.[27]

ABŞ-də baş vermiş digər bir məhkəmə işində isə Maykl Koen adlı hüquqşünasın məhkəmə işlərindən gətirdiyi istinadların "Bard" Sİ "chatbot"-u tərəfindən uydurulduğu məlum olmuşdur.[28] Hüquqşünas texnologiya sahəsində baş verən yeni trendləri izləmədiyini və bu səbəblə də "chatbot"-un mövcud olmayan faktlar verdiyindən xəbərinin olmadığını bildirmişdir.[29]

Başqa bir nümunə isə Böyük Britaniyaya aid *Harber v. HMRC* məhkəmə işindəndir. Vergi işi ilə əlaqədar məhkəməyə müraciətində xanım Harberin "ChatGPT" kimi Sİ aləti tərəfindən yaradılmış saxta məhkəmə işlərinin faktlarına istinad etməsi məhkəmə tərəfindən hüquq sisteminə təhlükə kimi səciyyələndirilmişdir.[30] Belə ki, uydurma məhkəmə qərarlarına istinad edilməsi məhkəmənin və inzibati orqanların vaxtının, eləcə də dövlət büdcəsindən vəsaitlərin israf edilməsinə səbəb olur. Bu da, öz növbəsində, məhkəmənin iş yükünü artıraraq məhkəməyə müraciət edən digər şəxslərin işləri üzrə qərarların verilməsinə sərf olunan resursların azalmasına gətirib çıxarır.[31]

Digər bir risk isə gizliliklə, fərdi məlumatların yayılması ilə əlaqədardır. Belə ki, 30 mart 2023-cü ildə İtaliya Məlumatların Mühafizəsi Təşkilatı "ChatGPT"-nin fəaliyyətini müvəqqəti olaraq məhdudlaşdırmışdır.[32] Səbəb

[25] *Mata v. Avianca, Inc.*, 22-cv-1461 (PKC), at 1 (S.D.N.Y. Jun. 22, 2023). Burada bax: https://cases.justia.com/federal/district-courts/new-york/nysdce/1:2022cv01461/575368/54/0.pdf?ts=1687525481 (son baxış 13 fevral 2024).

[26] Yenə orada.

[27] Yenə orada.

[28] *United States v. Cohen*, No. 18 Cr. 602, at 3 (S.D.N.Y. Dec. 28, 2023). Availale at: https://storage.courtlistener.com/recap/gov.uscourts.nysd.499666/gov.uscourts.nysd.499666.104.0_1.pdf

[29] Yenə orada.

[30] *Felicity Harber v. Comm'rs for HMRC*, [2023] UKFTT 1007 (TC), § 24 (2023).

[31] Yenə orada.

[32] Artificial intelligence: stop to ChatGPT by the Italian SA Personal data is collected unlawfully, no age verification system is in place for children (2023),

isə platformanın alqoritminin təlim edilməsi məqsədilə hüquqi əsas olmadan kütləvi olaraq fərdi məlumatların toplanması və emal edilməsi idi.[33] 29 yanvar 2024-cü ildə isə Təşkilat əldə edilmiş sübutların "GDPR"-ın müddəalarının pozulmasına işarə etdiyini bildirmişdir.[34]

Məlumatların gizliliyi ilə əlaqədar başqa bir təhlükəsizlik riski isə "Custom GPT" ilə əlaqədardır. "Custom GPT" istifadəçilərə xüsusi proqramlaşdırma biliyinə malik olmadan özlərinə məxsus "chatbot" formalaşdırmaq imkanını verir.[35] Belə ki, istifadəçilər daxil etdikləri məlumatlar vasitəsilə bu Sİ modellərini öz istifadə məqsədlərinə uyğun şəkildə təlimatlandıra bilirlər. Məsələn, istifadəçi əmək müqavilələrinin bağlanmasında yardım etməsi üçün xüsusi GPT yarada və bu sahə ilə bağlı geniş məlumat bazasını modelə daxil edə bilər.

Bununla belə, "OpenAI" şirkətinin mağazasındakı 16 bu cür model üzərində aparılmış tədqiqata əsasən, modellərə əvvəlcədən yüklənmiş faylların başqa istifadəçilər tərəfindən sadə göstərişlər vasitəsilə əldə edilməsi 100% halda mümkün olmuşdur.[36] Nəticədə, belə bir hal, xüsusilə konfidensial informasiya həmin faylda yer alırsa, gizliliyi təhlükə altına alır.[37]

Nəticədə, Sİ-nin tətbiqinin hüquq sahəsində hər nə qədər üstünlükləri olsa da, əhəmiyyətli dərəcədə risklərə, hətta sanksiyalara da səbəb olur. Sİ-nin təqdim etdiyi məlumatlara həddən artıq etibar etmək, real nümunələrdən də göründüyü kimi, vəkillər üçün etik və peşəkarlıqla bağlı mənfi nəticələrə səbəb ola bilər. Bu riskləri azaltmaq və hüquq sahəsində Sİ-dən məsuliyyətli istifadəni təşviq etmək üçün vəkillik qaydaları da yeni texnologiyaya uyğun olaraq dəyişdirilməlidir.

## II. Vəkillərin peşə davranış qaydaları və Sİ

Vəkilin vəzifəsi ona tapşırılan işi vicdanla və qanunauyğun olaraq icra etməklə məhdudlaşmır. Belə ki, vəkil müştərilər, məhkəmələr, habelə cəmiyyət qarşısında da müəyyən hüquqi və əxlaqi vəzifələrə malikdir.[38] Məhz bu qəbildən vəzifələrin təsbit edilməsi və pozulduğu təqdirdə intizam cəzası

https://www.garanteprivacy.it/web/guest/home/docweb/-/docweb-display/docweb/9870847#english (son baxış 17 fevral 2024).

[33] Yenə orada.

[34] ChatGPT: Italian DPA notifies breaches of privacy law to OpenAI (2024), https://www.garanteprivacy.it/home/docweb/-/docweb-display/docweb/9978020#english (son baxış 17 fevral 2024).

[35] Jiahao Yu və digərləri, *Assessing Prompt Injection Risks in 200+ Custom Gpts*, 2 (2023). Burada bax: https://arxiv.org/pdf/2311.11538.pdf (son baxış 17 fevral 2024).

[36] Yenə orada, 4.

[37] Yenə orada, 2.

[38] Daha ətraflı bax: Avropa vəkillərinin davranış Kodeksi, mad. 1.1 (2019); Azərbaycan Respublikasının Vəkillər Kollegiyası, "Vəkillərin davranış qaydaları haqqında" Əsasnamə, preambula (2020).

ilə sanksiyalaşdırılması məqsədilə bir sıra ölkələrin vəkillər kollegiyaları tərəfindən vəkillərin peşə davranışı qaydaları qəbul edilir.[39]

Beləliklə, bu bölmədə Sİ və vəkillik qaydaları çərçivəsində aşağıdakı suallar tədqiq ediləcəkdir: ABŞ-də və Azərbaycandakı mövcud qaydalar məqalənin əvvəlində qeyd olunmuş riskləri və ya Sİ alətlərindən istifadəni hansı çərçivədə tənzimləyir? Vəkillik qaydaları "ChatGPT" kimi Sİ alətlərindən istifadəni qadağan edirmi və əgər etmirsə, vəkillər ondan hansı çərçivədə istifadə edə bilərlər?

### A. ABŞ vəkillər kollegiyalarının qaydaları

ABŞ-də "ABA"-nın siyasət orqanı olan Nümayəndələr Palatası (*The House of Delegates*) tərəfindən Sİ ilə bağlı üç təlimat qəbul edilmişdir.[40] Belə ki, ilk təlimat 2019-cu il tarixli Qətnamə olmuşdur. Bu sənəddə hüquq praktikasında Sİ-dən istifadədən irəli gələn etik və hüquqi məsələlərin həlli üçün vəkillərə və məhkəmələrə çağırış edilmişdir.[41] 2022-ci il tarixli Qətnamə isə cinayət prosesi ilə əlaqədar olub hökumət qurumlarını risklərin qiymətləndirilməsinin şəffaf olmadıqca, eləcə də birbaşa və ya dolayı olaraq irqi, etnik və ya digər faktorların mövcud olmadığını nümayiş etdirmədikcə risklərin qiymətləndirilməsi alətlərindən istifadə etməməyə çağırmışdır.[42]

2023-cü il tarixli qətnamə isə hüquq sisteminin və onun iştirakçılarının, o cümlədən vəkillərin və maraqlı tərəflərin, habelə Sİ sistemləri üzrə mühəndislərin hesabatlılıq, şəffaflıq və izlənilə bilənlik prinsiplərinə əsaslanaraq Sİ ilə bağlı fundamental məsələləri necə qiymətləndirməli olduğuna dair təlimat təqdim edir.[43] Burada bildirilir ki, Sİ kontekstində fərdi və korporativ məsuliyyət, həmçinin insan nəzarəti zəruridir. Belə ki, hüquqi məsuliyyətin müvafiq fiziki və hüquqi şəxslər əvəzinə kompüter və ya alqoritmə ötürülməsi məqsədəuyğun deyildir.[44] Əlavə olaraq, Qətnamə Sİ-nin fəaliyyətinin anlaşıla və izlənilə bilən olmasını təmin edərək hakimlərə və hüquqşünaslara Sİ-nin hüquqi işlərdə necə rol oynadığını anlamağa kömək edəcəkdir.[45]

Bununla yanaşı, Kaliforniya Ştatı Vəkillər Kollegiyasının qəbul etdiyi Hüquqi Təcrübədə Yaradıcı Süni İntellektin İstifadəsi haqqında Praktiki

---

[39] Yenə orada, mad. 1.2.1.

[40] ABA House adopts 3 guidelines to improve use of artificial intelligence (2023), https://www.abajournal.com/web/article/aba-house-adopts-3-guidelines-to-improve-use-of-artificial-intelligence (son baxış 17 fevral 2024).

[41] Yenə orada.

[42] Pretrial risk-assessment tools should only be used if they're transparent and unbiased, warns ABA House (2022), https://www.abajournal.com/news/article/resolution-700#:~:text=Resolution%20700%2C%20which%20was%20approved,structurally%20biased%20application%20of%20laws%2C (son baxış 17 fevral 2024).

[43] Yuxarıda istinad 40.

[44] Yenə orada.

[45] Yenə orada.

Təlimat (bundan sonra – Praktiki Təlimat) vəkillərin Sİ-dən istifadəsini tənzimləyən ilk sənəddir.[46] Həmçinin Florida Vəkillər Kollegiyası da yaradıcı Sİ-nin tətbiqi ilə bağlı etik təlimat qəbul etmişdir.[47] Əlavə olaraq, altı başqa ştatda da vəkillərin yeni texnologiyadan istifadəsinin tənzimlənməsi ilə bağlı araşdırmalar aparılır.[48]

### *1. Kaliforniya Ştatı Vəkillər Kollegiyasının hüquqi təcrübədə yaradıcı süni intellektin istifadəsi haqqında Praktiki Təlimatı*

16 noyabr 2023-cü ildə qəbul edilmiş Praktiki Təlimat qüvvədə olan peşəkar davranış qaydalarını və qanunvericiliyi Sİ-dən istifadə kontekstində izah edir və vəkillərə etik qaydalara necə riayət edilməsini göstərir.[49] Texnologiyanın daha da inkişaf etməsi mövcud qaydaların gələcəkdə dəyişdirilməsinə səbəb olsa belə, Praktiki Təlimatın hazırda vəkillərin Sİ-dən istifadə ilə əlaqədar peşəkar davranışdan irəli gələn öhdəliklərinə əməl etmələrinə yardımçı olması nəzərdə tutulmuşdur.[50] Beləliklə, sənəd Sİ-nin tətbiqini qadağan etməsə də, vəkilin hüquqi xidmətlərin göstərilməsi ilə əlaqədar istifadə olunan texnologiyanın risk və üstünlüklərini başa düşməli olduğunu qeyd edir.[51]

Praktiki Təlimat Sİ-dən istifadəni bir neçə başlıq altında tənzimləyir: konfidensiallıq, qanuna riayət, Sİ-nin tətbiqi ilə bağlı müştərini məlumatlandırma və s. Müvafiq başlıqlar altında isə mövcud vəkillik qaydalarının müxtəlif müddəalarına uyğun olaraq rəhbər prinsiplər kimi tövsiyələr əks olunmuşdur.[52]

Konfidensiallıq baxımından qeyd edilir ki, müştəriyə aid konfidensial informasiya müvafiq məxfilik və təhlükəsizlik təminatlarına malik olmayan hər hansı yaradıcı Sİ-yə verilməməli, həmçinin vəkil tərəfindən anonimləşdirilməlidir.[53] Vəkil və ya hüquq firması Sİ alətinin daxil edilən məlumatlardan necə istifadə etdiyini müəyyən etmək üçün müvafiq istifadə

[46] Yuxarıda istinad 5.
[47] Florida Adopts Ethics Guidelines for Use of Generative A.I. (2024), https://www.ediscoveryllc.com/florida-adopts-ethics-guidelines-for-use-of-generative-a-i/ (son baxış 17 fevral 2024).
[48] Lawyers' use of AI spurs ethics rule changes (2024), https://www.reuters.com/legal/transactional/lawyers-use-ai-spurs-ethics-rule-changes-2024-01-22/ (son baxış 17 fevral 2024).
[49] The State Bar of California, Recommendations from Committee on Professional Responsibility and Conduct on Regulation of Use of Generative AI by Licensees, 3 (2023). Bax: https://board.calbar.ca.gov/docs/agendaItem/Public/agendaitem1000031754.pdf (son baxış 17 fevral 2024).
[50] Yenə orada.
[51] The State Bar of California, Practical Guidance for the Use of Generative Artificial Intelligence in the Practice of Law, 1 (2023).
[52] Yenə orada.
[53] Yenə orada, 2.

şərtlərinə nəzər yetirməlidir.[54] Əlavə olaraq, Sİ alətinin konfidensiallıq məsələlərini ehtiyata almaq üçün İT və ya kibertəhlükəsizlik mütəxəssisləri ilə məsləhətləşmək də mümkündür.[55]

Peşəkarlıq və lazımi səylə bağlı vəzifələri yerinə yetirmək məqsədilə vəkil texnologiyanın necə işlədiyini və onun çatışmazlıqlarını başa düşməlidir.[56] Belə ki, Sİ alətlərinə həddən artıq etibar etməkdən geri durmalı, həm vəkilin daxil etdiyi, həm də Sİ tərəfindən hazırlanmış məlumatların düzgünlüyü yoxlanılmalıdır.[57] Həmçinin hər hansı iş barəsində yekun qərar yalnız vəkil tərəfindən verilə bilər və bunu vəkilin yerinə Sİ icra edə bilməz.[58]

Başqa bir etik qayda kimi isə qeyd edilmişdir ki, vəkil müştərisini təmsil edərkən onu Sİ-dən istifadə olunması barədə məlumatlandırmalıdır. Belə ki, o, müştərini təmsil edərkən belə niyyətini, o cümlədən texnologiyanın necə istifadə ediləcəyini və bu cür istifadənin üstünlük və risklərini açıqlamalıdır.[59] Müştəri də öz növbəsində razılıq verməyə bilər və bu, vəkil tərəfindən nəzərə alınmalıdır.[60]

Praktiki Təlimat bütün risklərlə yanaşı, vəkillərin Sİ vasitəsilə qənaət etdikləri vaxtdan müştərilərə qarşı sui-istifadə halını da tənzimləyir. Belə ki, vəkil Sİ-dən istifadə etməklə qənaət edilən vaxt üçün saatlıq haqq almamalıdır.[61] Əlavə olaraq, burada vəkilin məhkəmə qarşısında da peşəkar davranış qaydası əksini tapmışdır. Həmin qaydaya əsasən, vəkil məhkəməyə Sİ tərəfindən yazılmış doğru olmayan faktları təqdim etməməli, yol verilmiş səhvləri isə aradan qaldırmalıdır.[62]

Beləliklə, Praktiki Təlimat yeni texnologiyalardan istifadənin qarşısını almadan mövcud vəkillik qaydaları üçün məqsədəuyğun şərhlər təqdim edir və vəkillərin yaradıcı Sİ-dən istifadəsi ilə əlaqəli ortaya çıxa biləcək riskləri azaltmaq məqsədi daşıyır.

***2. Florida Vəkillər Kollegiyasının Etik Məsləhət Rəyi***

19 yanvar 2024-cü il tarixində Florida Vəkillər Kollegiyası Etik Məsləhət Rəyi (bundan sonra – Rəy) qəbul etmişdir.[63] Bundan əvvəl, 4 yanvar tarixində isə Florida Ali Məhkəməsinə Florida Vəkillər Kollegiyasını Tənzimləyən Qaydalara dəyişikliklər paketi təqdim etmişdir.[64] Bu paket əsasən Rəydə əks

[54] Yenə orada.
[55] Yenə orada.
[56] Yenə orada, 3.
[57] Yenə orada.
[58] Yenə orada.
[59] Yenə orada, 4.
[60] Yenə orada.
[61] Yenə orada.
[62] Yenə orada, 5.
[63] Yuxarıda istinad 47.
[64] Florida's Lawyer Leaders Push Ethical Guardrails for AI Use (2024), https://www.jdsupra.com/legalnews/florida-s-lawyer-leaders-push-ethical-9090723/ (son baxış 17 fevral 2024).

olunmuş müddəaları əhatə edir və qüvvəyə mindiyi təqdirdə Rəydən fərqli olaraq, məcburi qüvvəyə malik olacaqdır.[65]

Hazırkı Rəydə isə Praktiki Təlimatda olduğu kimi, konfidensial informasiyadan istifadə ediləcəyi təqdirdə, bir qayda olaraq, vəkil müştərinin razılığını almalı,[66] Sİ xidmətinin təhlükəsizliyinə əmin olmalıdır.[67] Rəydə həmçinin qeyd edilir ki, hüquq şirkətinin özünə məxsus olan Sİ-dən istifadə etməsi kənardan cəlb etdiyi Sİ ilə müqayisədə konfidensial məlumatların yayılması risklərini azalda bilər.[68] Bununla belə, əgər vəkil Sİ-yə konfidensial olmayan məlumatlar daxil edəcəksə, bu zaman müştərinin razılığını almasına ehtiyac yoxdur.

Sİ-yə insan nəzarəti baxımından isə Rəydə hazırkı qeyri-hüquqşünas və ya vəkil köməkçisi üzərində vəkil nəzarəti ilə bağlı qaydaların Sİ-yə də tətbiq edilməsinin məqsədəuyğunluğu qeyd edilmişdir.[69] Belə ki, onlar eyni dərəcədə risk daşıyırlar, həm Sİ, həm də vəkil köməkçisi vəkilin rəhbərliyi altında onun tapşırıqlarını yerinə yetirirlər, son nəticədə isə gördükləri işlər vəkil tərəfindən yoxlanılaraq müştəriyə təqdim edilir.

Sİ-nin tətbiq edildiyi hüquqi xidmətə görə ödənişlə bağlı tənzimləmə Rəydə də əks etdirilmişdir. Belə ki, müştərilərlə vaxtamuzd qiymətə razılaşıb Sİ vasitəsilə qənaət edilmiş vaxta görə də hüquqi yardım haqqı alınması etik hesab edilməmişdir.[70] Əvəzində isə işəmuzd haqqın ödənilməsi tövsiyə edilmişdir.[71]

Praktiki Təlimatdan fərqli olaraq, Rəydə qeyd edilir ki, vəkillər öz işlərində Sİ-dən istifadə etdiklərini reklam edə bilərlər. Bununla belə, obyektiv olaraq yoxlanıla bilmədikcə bu texnologiyanın digər vəkillərin tətbiq etdiklərindən üstün olduğunu bildirə bilməzlər.[72]

Beləliklə, Rəy müvafiq vəkillik qaydalarına uyğun olduqca Sİ-dən istifadəni qadağan etməmişdir. O konfidensiallıq, hüquqi xidmətə görə ödənişin hesablanması və digər məsələlərlə bağlı Praktiki Təlimatla oxşar yanaşmaya malik olub ortaya çıxa biləcək riskləri məhdudlaşdırmağa çağırır.

### B. Azərbaycan Respublikasının qanunvericiliyində vəkillərin fəaliyyətinin tənzimlənməsi

Azərbaycan Respublikasında (bundan sonra – AR) vəkillik fəaliyyəti "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanun (bundan sonra – Qanun) və

[65] Yenə orada.
[66] The Florida Bar, Florida Bar Ethics Opinion 24-1, 2 (2024); Sİ daxil edilən məlumatları toplayaraq özünü təkmilləşdirə bilir ki, bu da saxlanılmış məlumatın daha sonra 3-cü tərəfə yaymasına səbəb ola bilər.
[67] Yenə orada, 3.
[68] Yenə orada.
[69] Yenə orada, 4.
[70] Yenə orada, 6.
[71] Yenə orada.
[72] Yenə orada, 7.

AR Vəkillər Kollegiyası (bundan sonra – VK) tərəfindən qəbul olunmuş "Vəkillərin davranış qaydaları haqqında" Əsasnamə (bundan sonra – Əsasnamə) ilə tənzimlənir. Qanunun məqsədi vəkillərin fəaliyyətinin tənzimlənməsi olub, adı çəkilən sahənin əsas prinsiplərini, habelə vəkillərin fəaliyyətini, hüquq və vəzifələrini təsbit edir. Onun 3-cü maddəsinə əsasən, yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsi vəkillərin əsas vəzifələrindən biri kimi göstərilmişdir.[73] Hüquqi yardımın dairəsinə isə hüquqi məsələlər üzrə yazılı və şifahi məsləhətlər, izahatlar və arayışların verilməsi, habelə hüquqi xarakterli sənədlərin tərtib edilməsi aiddir. I başlıqda da müzakirə edildiyi kimi, sadalanan qəbildən işlərdə artıq hüquqşünaslar tərəfindən Sİ-dən geniş istifadə edilir ki, bu da həmin başlıqda adıçəkilən risklərə yol açır. Texnologiyanın daha əlçatan olması isə həmin risklərin Azərbaycan vəkillərinin fəaliyyətinə də sirayət edə biləcəyi deməkdir. Məhz bu səbəbdən yola çıxaraq risklərin qarşısını almaq, habelə dövrün tələblərinə uyğunlaşmaq məqsədilə Qanunda və Əsasnamədə bir sıra dəyişikliklərin edilməsi zərurəti yaranmışdır. Həmin düzəlişləri təklif edərkən Sİ və vəkillərin davranış qaydalarını ilk dəfə tənzimləməsinə görə ABŞ-nin təcrübəsini nəzərə alacağıq.

Əvvəlcə, Qanun və Əsasnamədə vəkil etikasının əhəmiyyəti müzakirə ediləcəkdir. Belə ki, Qanuna əsasən, vəkil peşə fəaliyyətini həyata keçirərkən vəkil etikasına riayət etməlidir. Bununla belə, öz fəaliyyətində qanunvericiliyə və vəkil etikasına zidd olmayan bütün üsul və vasitələrdən istifadə edə bilər.[74] Vəkil etikasının tələbləri isə həm Qanunun 18-ci maddəsində, həm də Əsasnamədə öz əksini tapmışdır.[75] Vəkil qanunvericiliyin, Əsasnamənin, o cümlədən vəkil etikası normalarını pozduğu təqdirdə isə intizam məsuliyyətinə cəlb edilir.[76] İntizam tənbehlərinə isə irad tutma, töhmət və üç aydan bir il müddətinədək vəkillik fəaliyyəti ilə məşğul olmanın dayandırılması daxildir.[77] Nəticədə, vəkil etikasının pozulması kifayət qədər ağır sanksiyanın tətbiqinə səbəb ola bilər.

Ölkəmizdə də Sİ-nin hüquq təcrübəsinə tətbiqinin vəkilin peşəkar davranış qaydaları ilə uyğunluğu müzakirə edilə bilər. Əvvəlcə, Əsasnamənin konfidensiallıqla bağlı davranış qaydaları qeyd edir ki, vəkil hüquqi yardımın göstərilməsinə cəlb etdiyi şəxslərdən konfidensiallıqla bağlı öhdəliklərə riayət edilməsini tələb etməlidir.[78] Vəkillərin Sİ-dən köməkçi kimi istifadə edə biləcəyini nəzərə alsaq, Sİ modelini təqdim edən şəxsdən konfidensiallığı

[73] "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, mad. 3 (1997).
[74] Yenə orada, mad. 15.II və 16.I.
[75] Yuxarıda istinad 38, mad. 2; Azərbaycan Respublikası Vəkillər Kollegiyası, Vəkillərin davranış qaydaları haqqında Əsasnamə, mad. 2 (2020).
[76] Yuxarıda istinad 73, mad. 22.I.
[77] Yenə orada, mad. 22.VI.
[78] Əsasnamə, yuxarıda istinad 75, mad. 2.6.

qorumasını tələb etməsi düşünülə bilər. Bununla belə, vəkil Sİ-dən istifadə edərkən standart şərtlərlə razılaşacağına görə həmin şəxsdən belə bir şey tələb etməsi effektiv olmayacaqdır. Ən yaxşı halda əlindəki məlumatları anonimləşdirərək Sİ-yə daxil etməli və ya Sİ xidmətləri təqdim edən şəxsin məlumatların mühafizəsi rejimi ilə tanış olmalıdır. Yalnız məlumatların konfidensial saxlanılacağına əmin olunduqda Sİ-dən istifadə edilə bilər. Bu cür şərtin Əsasnamədə qeyd edilməsi konfidensiallığa əməl edilməsinə təşviq üçün məqsədəuyğundur.

Əsasnaməyə görə, vəkil ona etibar olunmuş işin gedişatı və icrası ilə bağlı hüquqi yardım göstərdiyi şəxsi mütəmadi olaraq məlumatlandırmalıdır.[79] ABŞ təcrübəsini nəzərə alaraq təklif edirik ki, işdə Sİ-nin tətbiq olunması ilə də bağlı şəxsə əvvəlcədən məlumat verməli və fərdi məlumatlardan anonimləşdirmə aparmadan istifadə edəcəyi təqdirdə bununla bağlı şəxsdən razılıq almalıdır.

Vəkilin məhkəmə və digər orqanlarla münasibətləri ilə əlaqədar Əsasnamədə qeyd edilir ki, vəkil heç vaxt məhkəməyə, ibtidai istintaq və təhqiqat orqanına bilərəkdən yanlış və ya çaşdırıcı məlumat verməməlidir.[80] Sİ-nin "hallüsinasiyalara" görə yanlış məlumatlar təqdim etməsini nəzərə alaraq bu müddəanın aşağıdakı redaksiyada verilməsini məqsədəuyğun hesab edirik:

*"4.4. Vəkil məhkəməyə, ibtidai istintaq və təhqiqat orqanına bilərəkdən, habelə bilməli olduğu, yaxud bilə biləcəyi halda yalan və ya təhrif olumuş məlumat verməməlidir".*

Bununla da vəkilin nəinki bilərəkdən, hətta biləcəyi və ya bilməli olduğu hallarla da əlaqədar öhdəlik qoyulacaqdır. Nəticə etibarilə vəkillər Sİ-yə həddən artıq etibar etməyərək daha çox diqqət ayırmalı olacaqdırlar.

Vəkilin peşə hazırlığı nöqteyi-nəzərindən isə Əsasnamə peşəkar bilik və bacarıqların daim inkişaf etdirilməli olduğunu təsbit etmişdir.[81] Vəkillərin, xüsusi olaraq, Sİ-dən istifadə edəcəkləri təqdirdə kifayət qədər bilik və bacarıqlara malik olması, yəni müəyyən rəqəmsal savadlılığa malik olmaları vacibdir. Bunu təmin etmək məqsədilə isə müddəanın aşağıdakı redaksiyada verilməsini təklif edirik:

*"6.1. Vəkil peşəkar bilik və bacarıqlarını daim inkişaf etdirməli, yeni texnologiyalardan istifadə edəcəyi təqdirdə zəruri rəqamsal savadlılığa malik olmalıdır".*

Yuxarıda sadalanan davranış qaydaları ilə yanaşı, vəkilin göstərdiyi xidmətin haqqını təyin etməsi də qanunvericiliklə tənzimlənir. Qanuna əsasən, vəkillər tərəfindən hüquqi yardımın göstərilməsinə görə təyin edilən

[79] Yenə orada, 3.4.
[80] Yenə orada, 4.4.
[81] Yenə orada, 6.1.

haqqın məbləği məhdudlaşdırıla bilməz.[82] Belə ki, məbləğin təyin edilməsi bu yardımı göstərən tərəfin müstəsna hüququdur və yalnız tərəflərin razılığı ilə tənzimlənir. Bununla belə, Sİ-nin imkanlarından faydalanaraq vaxta qənaət etmiş vəkilin məbləği vaxtamuzd hesablayarkən qiyməti də buna uyğun olaraq azaltmaması kimi sui-istifadə halı da ortaya çıxa bilər ki, bu da digər tərəfin zərərinə olacaqdır. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 18 dekabr 2023-cü il tarixli Plenum Qərarı (bundan sonra – Qərar) hüquqi yardım xidmətinin göstərilməsi haqqında müqavilələrin işin uğurlu nəticəsinə görə mükafatı nəzərdə tutan müddəalarının ağır şərtli əqd olaraq hüquqdan sui-istifadə təşkil edib-etmədiyinin məhkəmələr tərəfindən yoxlanılmalı olduğunu qeyd etmişdir.[83] Plenum həmçinin qeyd edir ki, vəkillə müştəri arasındakı münasibətlər yalnız kommersiya xarakteri daşımır və ictimai xüsusiyyətə də malikdir. Beləliklə, Plenum qeyd olunan səbəblərdən və fərdlərin hüquqlarının müdafiəsi məqsədilə hüquqi yardımla bağlı xidmətlərin müvafiq olaraq tənzimlənməsini məqsədəuyğun hesab etmişdir. Digər tərəfdən, Qərarda müqavilələr üzrə razılaşdırılmış haqq (qonorar) və mükafat anlayışları da fərqləndirilmişdir. Belə ki, birincisi vəkilə həvalə edilmiş tapşırığın müqabilində ödənilir və bir sıra amillərdən, o cümlədən hüquqi yardımın göstərilməsi ilə bağlı sərf edilmiş vaxtdan asılıdır. İşin uğurlu nəticəsinə görə mükafata anoloji olaraq, məhkəmələr gələcəkdə vəkillərin Sİ vasitəsilə vaxtdan qənaət edərək vaxtamuzd hesablanmış, lakin haqqın məbləğində bunu nəzərə almadan aşkar ədalətsizliyə səbəb olmuş əqdləri yoxlamalı olacaqdır. Önləyici addım kimi isə ABŞ-də qəbul edilmiş hüquqi xidmət üçün ödənişlə bağlı müvafiq etik qaydaları nəzərə alaraq Sİ tətbiq edilən hüquqi yardımın vaxtamuzd, habelə ağır şərtlə bağlanılmasının yolverilməzliyi ilə bağlı Əsasnaməyə müddəa əlavə edilə bilər. Nəticədə, Qərarda da qeyd edildiyi kimi, hüquqi yardım üçün müraciət edən şəxslərin sui-istifadə hallarından müdafiəsi təmin edilmiş olar.

AR VK-nın Nizamnaməsinin 12.3-cü bəndinə əsasən, Rəyasət Heyəti vəkil köməkçiləri ilə yaranan əmək münasibətlərinə dair metodik tövsiyələr verə bilər. Vəkil köməkçilərinin fəaliyyətinin tənzimlənməsi qaydalarına görə vəkil köməkçisi öz fəaliyyətini vəkilin rəhbərliyi altında və onun tapşırıqlarını yerinə yetirməklə həyata keçirir və müstəqil olaraq vəkillik fəaliyyəti ilə məşğul ola bilməz.[84] Florida Vəkillər Kollegiyasının Rəyində də qeyd edildiyi kimi, vəkil köməkçiləri kimi Sİ də yekun qərarı verə bilməz, çünki

---

[82] Yuxarıda istinad 73, mad. 19.III.

[83] Daha ətraflı bax: "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 6.2, 390.1 və 390.5-ci maddələrinin və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinin III hissəsinin Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsi və Azərbaycan Respublikası Mülki Məcəlləsinin 16.1 və 560.2-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı (2023).

[84] Vəkil köməkçilərinin fəaliyyətinin tənzimlənməsi Qaydaları, mad. 1.2–1.3 (2021).

fəaliyyətləri yalnız verilən tapşırıqları yerinə yetirməklə məhdudlaşır. Beləliklə, yuxarıdakı təkliflərə əlavə olaraq, Əsasnaməyə vəkil köməkçiləri ilə yanaşı, Sİ-dən istifadəyə dair də yeni müddəa əlavə edilə və ya ayrıca qaydalar qəbul edilə bilər.

Nəticədə, Sİ-dən istifadənin hüquq praktikasında tətbiqi və yol açacağı risklər milli qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsini zəruri edir. ABŞ-də qəbul edilmiş aktların Sİ kontekstində nəzərə alınması ilə Qanun və Əsasnamədə təsbit edilmiş vəkil etikası ilə bağlı müddəalar yenilənərək müvafiq risklərin qarşısı alına bilər.

## Nəticə

Yeni texnologiyaların sürətli inkişafı ilə Sİ-nin vəkillik də daxil olmaqla, bütün sahələrdə tətbiqinə yol açılmışdır. Bu davamlı inkişaf özü ilə bərabər üstünlüklərlə yanaşı, risklər də gətirir ki, onların tənzimlənməsi ilə bağlı zərurət meydana gəlmişdir. Məhz belə bir ehtiyac nəticəsində ABŞ-də qəbul edilmiş yeni vəkillik qaydaları da Sİ və peşəkar qaydalar çərçivəsində bu sahədə müəyyən tənzimləmələr gətirmişdir. Belə ki, vəkillərin Sİ-dən necə istifadə edəcəklərinə dair artıq müəyyən təsəvvür formalaşmışdır.

Nə ABŞ-də, nə də Azərbaycanda vəkillərin qanunvericilik və etik qaydalara zidd olmadıqca yaradıcı Sİ-lərdən istifadə etməsi qadağan edilmişdir. Vəkillərin yeni texnologiyaların inkişafı kontekstində etik qaydalara riayət etməsini təmin etmək üçün mövcud müddəaların yeniləri ilə əvəz edilməsi zəruridir. Öz növbəsində Azərbaycan Vəkillər Kollegiyası da gələcəkdə ortaya çıxan Sİ və hüquq kontekstində vəkillərin məsuliyyətli davranışını tənzimləmək üçün məqalədə irəli sürülmüş təklifləri nəzərdən keçirə bilər.